Aqşin Rafiq oğlu Əliyev

İNGİLİS QADIN ŞAİRLƏRİNİN YARADICILIĞINA ÜMUMİ NƏZƏRİ BAXIŞ

İngiltərə ədəbiyyatı dünya ədəbiyyatı tarixində özünəməxsus yerlərdən birini tutur. Bu ədəbiyyat tarixin bütün dövrlərində hər dövrün özünəməxsus tələbləri, ədəbi cərəyanları, janrları, mövzu, süjet və motivlərinə uyğun olaraq inkişaf etmiş və neçə-neçə görkəmli şair və yazıçılar, bir-birindən gözəl əsərlər yetirmişdir (1, 8). Bu baxımdan İngiltərə ədəbiyyatı tarixinə nəzər salsaq görərik ki, ingilis ədəbiyyatı kifayət qədər zəngin və rəngarəng ədəbiyyatlardan biridir. Onu da qeyd etmək vacibdir ki, ingilis ədəbiyyatının inkişafında hamımıza məlum olan kişi yazıçılarla yanaşı, yalnız ingilislərə və avropalılara məlum olan qadın yazıçılarının da böyük xidməti olmuşdur. Belə ki, Azərbaycan ədəbiyyatından fərqli olaraq ingilis ədəbiyyatında qadın yazıçılarının sayı onlarla, hətta yüzlərlədir. Onlar haqqında ətraflı məlumat vermək bir məqalənin həcminə sığışmadığına görə biz onlardan yalnız bir neçəsinin adlarını çəkəcəyik.

Belə ki, bu yazıçılardan Elizabet Akton (1799-1859), Barbarina Brand (1768-1854), Meri Karey (1609-1680), Elizabet Karter (1717-1806), Elizabet Kari (1585-1639), Ledi Ceyn Kavendiş (1621-1669), Dorotiya Selisiya (1738-1790), Süzanna Kentlivr (1667-1723), Meri Şudlef (1656-1710), Meri Barbara (1685-1755), Anna Koley (1743-1809), Alisiya Danvers (1668-1725), Sara Fayq Eqerton (1668-1723), Ceyn Eliot (1727-1805), Ceyn Barker (1652-1732), Ketrin Mariya Fanşou (1765-1834), Elizabet Bas (1776-1844), Anna Finç (1661-1720), Marta Fouk (1689-1736), Karolina Fray (1787-1846), Frençis Qrevil (1748-1818), Konstantia Qrierson (1705-1732), Yudif Madan (1702-1784), Elizabet Melvil və ya Ledi Kulros (1578-1640), Latetiya Elizabet Landon (1802–1838), Elizabet Barrett Brauninq (1806-1861), Elizabet Frençis Amherst (1716-1779), Henrietta Battier (1751-1813), Afra Ben (1640-1689), Anna Bredstrit (1612-1672), Felisiya Dorotiya Hemans (1793–1835), Meri Alkok (1742-1798), Penelopa Aubin (1679-1738), Ketrin Austin (1629-1683), Ledi Qrizel Bayliya (1665-1746), Elizabeth Tudor (1533–1603), Meri Vros (1587–1652), Margareta Kavendiş (1623–1673), Anna Bannerman (1765-1829), Anna Latetia Barbauld (1743-1825) və sairənin adlarını qeyd etmək xüsusilə yerinə düşərdi.

Hələ Orta əsrlər dövründə qadınlar vəziyyətlərinin ağır olmasına baxmayaraq cəmiyyətin müxtəlif sahələrində, o cümlədən ədəbiyyat sahəsində də dəyərli tövhələr verdilər. İlk anqlasakson qadın yazıçıları kilsələrdə rahibələr kimi bir çox dini məsələlərdən bəhs edən yazılarla və dini məktublarla elm və ədəbiyyat sahəsinə gəldilər (3, 49). Bu yazıçılardan Meri de Frans (XII əsrin sonu, XIII əsrin əvvəlləri) və Kristina de Pisan ( 1364 — 1430) daha çox məşhur idilər. Sonralar qadınlar poeziya sahəsində, şəhər həyatından bəhs edən kitabların yazılmasında, o cümlədən, vəkillik sənəti və məhkəmə hüquq sahəsində yaxından iştirak etdilər ki, bunlardan Marqarit Kempin (1373 – 1438) adını çəkmək olar.

Bir sözlə qadınlar ingilis cəmiyyətinin müxtəlif sahələrində, o cümlədən, ədəbiyyat sahəsində yorulmadan çalışmış, bu yolda müxtəlif çətinliklərlə də üzləşməli olmuşlar. Çox vaxt ciddi qəbul edilməyən qadın yazıçılar kişi adlarını özlərinə psevdonim kimi seçərək əsərlər nəşr etdirmişlər. Orta əsrlər dövrünün qadınlarının qarşısında duran ən böyük bəlalardan biri də çox vaxt onları cadügərlikdə ittiham edərək qəddarcasına edam edən və tonqallarda yandıran kilsənin inkivizisiya məhkəməsi idi. Sonrakı dövrdə də ingilis qadın yazıçıları müxtəlif təzyiq və təqiblərə məruz qalsalar da bu onların mübarizə əzmini və yüzıb yaratmaq eşqini məhv edə bilmədi. Hər dəfə də onlar daha böyük enerji və fədakarlıqla çalışmağa başladılar.

Bu qadınlar çox vaxt da yüksək təbəqənin nümayəndələri olan qadın yazıçılar idilər ki, onlar da ya özlərinin mənsub olduğu zadəganlıq adına ya da ərlərinin gücünə və mənsəbinə arxalanırdılar. Lakin bəzən bu da onları xilas edə bilmirdi (8, 54).

Bu baxımdan məşhur ingilis ədəbi tənqidçisi Kerranın fikirləri mühüm əhəmiyyət kəsb edir. Kerran qeyd edirdi ki, qadınların cəmiyyətdə özünü təsdiq etməsi və yazıçı kimi qəbul edilməsi onlara asan başa gəlməmişdir. Belə ki, mühavizəkar cəmiyyət ümumilikdə qadınları hər yaşda bir cür tərifləsə də, onlara səbirlizliklə gözlədikləri müstəqillik və azadlığı vermədi. Qadınlar nə qədər azadlığa can atdılarsa , bir o qədər tənqid edildilər, nə qədər özlərini cəmiyyətdə təsdiq etməyə çalışdılarsa, bir o qədər ələ salındılar. Onların azadlıq yolunu mənəviyyat və dini məsuliyyət pərdəsi ilə kəsdilər, bu yolda qadınlardan öldürüləni də oldu, həbs ediləni də. Cəmiyyət onların xoşbəxtliyini psixoloji və emosional əhvali-ruhiyyələrinin və intellektual bacarıqlarının nümayiş etdirilməsində yox, daha çox onların evdarlığında gördü. Hətta Elizabet Barret Brauninq kimi yüksək təbəqədən olan varlı və nüfuzlu qadınlar belə arzu etdikləri azadlığa qovuşa bilmədilər. (5, 147).

Digər ingilis tənqidçisi Meri Anna Stodart özünün "Qadın yazıçılar: onların uzaqgörən və faydalı fikirlərinin gücü" adlı 1842-ci ildə yazdığı məqaləsində qadın yazıçılarının yaradıcılığına xüsusi yer ayıraraq vurğulayır ki, "kişiləri həyəcanlandırıb onları lirik şeirlər yazmağa məcbur edən zərif qadın əlləri əlbəttə gözəl şeirlər yazmağa da qadirdir. Çünki onlar qadın dünyasına daha yaxşı bələd olub bu dünyanı başdan-başa sevgi ilə yoğrulmuş sirli bir aləm kimi öyrənməyə can atan kişilərdən fərqli olaraq onun ziddiyyətlərini, çatışmazlıqlarını və naqisliklərini çox asanlıqla görə bilirlər" (10, 86).

İngilis ədəbi tənqidinin məşhur nümayəndələrindən biri olan İzabel Armstronq da özünün "Viktorian poeziyası" əsərində isə vurğulayır ki, "qadın yazıçılar ətrafda baş verən hadisələri özlərinin həssas və dəqiq düşüncəli iç dünyalarından keçirərək öz yaradıcılıq imkanlarını üzə çıxarırlar ki, biz bunu ney çalanın çöldəki havanı ciyərlərinə çəkib öz nəfəsindən keçirərək çaldığı neyin gözəl nəğməsi şəklində yenidən geri qaytarması ilə müqayisə edə bilərik" (2, 125).

Başqa ingilis tədqiqatçısı F.Elizabet Grey isə vurğulayır ki, "min illərdir şeirlərə mövzu olan qadın gözəlliyi onların öz yaradıcılığında psixoloji və mənəvi gözəlliklə əvəz olunur" (9,75).

Elizabet Akton (1799-1859) 17 aprel 1799-cu ildə İngiltərənin Saseks qraflığında anadan olmuşdur. İlk təhsilini Fransanın qızlar üçün internat məktəbində alan Elizabet 1826-cı ildə İngiltərəyə qayıdır. Onların ailəsi baptist olmuşdur. Onun özündən başqa üç bacısı və üç qardaşı olub. İlk yaradıcılığa Fransada olarkən başlamışdır. Burada o, "Parisə yetişərkən" əsərini yazmışdır. Bundan başqa onun bir neçə irihəcmli poemaları - "Kristof Framlinqam xronikaları"na daxil olan 1838-ci ildə yazdığı "Sadberi xronikası", 1842-ci ildə yazdığı "Şimalın səsi" adlı əsərləri vardır. Tədqiqatçı Li Kristin O'Brayn onun "Məzarım üstə gələrsən" şeirini misal gətirərək qeyd edir ki, onun əsərlərində əsasən qarşılıqsız məhəbbətin nisgili və kişi xarakteri duyulmaqdadır.

Bu baxımdan adlarını yuxarıda qeyd etdiyimiz ingilis qadın şairlərinin bir sıra görkəmli nümayəndələrinin yaradıcılığına nəzər yetirmək xüsusilə yerinə düşərdi. Onlar ingilis və dünya ədəbiyyatı tarixinə yüzlərlə, hətta minlərlə bir-birindən dəyərli əsərlər vermişlər ki, aşağıda onlardan ən məşhurlarının yaradıcılığına nəzər salmışıq:

Meri Alkok (1742-1798) britaniyalı şair, esseist, xeyriyyəçisidir. O, Meri Covanna Bentlinin (1705-1775) və yepiskop Denison Kemberlendin (1705 -1774) ən kiçik uşaqları idi. Onun əsərlərindən "Həbs olunmuş borclu, yaxud həbsxanadan fraqmentlər", "Hava şarı, yaxud uçan ölü", "Poemalar" və s.-in adlarını çəkmək olar.

Penelopa Aubin (1679-1738) ingilis romançısı, şairəsi, və tərcüməçisidir. İlk yaradıcılığa 1707-ci ildə şeir yazmaqla başlayan Aubin 1721-ci ildə fransız dilindən etdiyi tərcüməsini nəşr etdirdi. O, 1738-ci ildə apreldə vəfat etdi. Lakin onun əri onun ölümünü 1740-ci ilə qədər gizli saxladı. Yazıçının "Lusindanın həyat və sevgi macəraları", "Mənəviyyat doktrinası", "Alicənab qullar yaxud, iki ağanın və iki xanımın macəraları", "Klermon şahzadəsinin macəraları", "Madam de Ravezan" və s. əsərləri vardır.

Ketrin Austin (1629-1683) tanınmış britaniyalı memuar ustası, şair və özünün çox məşhur meditasiya əlyazmalarından ibarət "M. kitabı" əsərinin müəllifidir. O, həmçinin kənd həyatına dair şeirləri və "Təntənəli dəfnlə əlaqədar" əsərini yazmışdır. Ketrin Austin 1628-ci ildən 1683-cü ilə qədər Londonda yaşamış, vətəndaş müharibəsi və bərpa illərinin səs-küylü hadisələrinin şahidi olmuşdur. Ketrin varlı kommersant ailəsindən çıxmış və eynilə özü kimi varlı və yüksək zümrədən olan Tomas Austin ilə evlənmişdir. Lakin onun əri Tomas çox yaşamadı və o öləndə Ketrinə üç uşaq və mülklərinin idarəetməsini qoyub getdi. Ketrin əri öləndən sonra yeddi il ərə getmədi. Dulluq həyatının ona bir çox məhrumiyyətlər gətirdiyini düşünən Ketrin əvvəlki var-dövlət və hakimiyyətini geri qaytarmaq üçün yenidən evləndi. 1660-cı ildə yazdığı "Ən qəmgin illər" əsərində yazıçının mülk üstündə məhkəmə çəkişmələri, tarixi şərhləri, dualar, məktublar və 34 bənddən ibarət qafiyəli şeiri toplanmışdır.

Ledi Qrizel Bayliya (1665-1746) şotland əsilli ingilis nəğməkar şairəsidir. Qrizel Berkşirdə Redbres qəsrində 1665-ci ildə anadan olmuşdur. Onun atası Patrik Yum şotland sui-qəsdçisi Qraf Robert Bayliyaya pərəstiş edirdi və 12 yaşlı qızı Qrizelda vasitəsilə ona məktublar göndərirdi. Bunu bilən kralın qoşunu Redbres qəsrini zəbt edir və Patrik Yum Polvars kilsəsində gizlənir. Sonra isə Birləşmiş Ştatlara qaçır. Onun ailəsi də buraya gəlib ona qoşulur. Hələ 12 yaşında olarkən Qraf Robertin oğlu Corc ilə tanış olan Qrizelda sonradan onunla evlənir və bu nigahdan onların iki qızı və bir oğlu olur. Onlar 1692-ci ildə yenidən Şotlandiyaya qayıdırlar və 1746-cı Qrizeldə Londonda vəfat edir və Mellersteyin məzarlığında dəfn edilir. Onun ən məşhur əsərləri 400 səhifədən ibarət "Şotland toy nəğmələri" əsəridir.

Elizabeth Tudorun (1533–1603) "Mən ədalətli və gənc olanda", İndi gedin və imkan verin istirahət edim", Cənabın getməsində", "Vudstokun pəncərəsində almazla yazılan yazı", "Vudstokun divarında yazılan yazı" əsərləri vardır.

Meri Barbara (1685-1755) şair və Svift dərnəyinin üzvü olmuşdur. Conatan Svift onu məşhur şair və alim Konstantia Qrierson və ədəbi tənqidçi Elizabet Sisan ilə birlikdə feminizmin öncülləri adlandırırdı (). Onun ən məşhur əsərlərindən "Dul qadının ünvanı", "Cənab Qreyin təmsillərinə əlavə olaraq", "Tanınmış xanımların poemaları" və s. əsərləri var.

Anna Finçin (1661-1720) "Giriş", "Göndərilmiş adam", "Appologiya", "Mənim özümdə", "Quş və qobelenlər", "Parnas muzalarından", "Apollon dövrü", "Ardelianın evə qayıdışı ərəfəsində", "Bülbülə", "Tez hirlənmək", "Gecə xəyalpərəstliyi" və s. əsərləri vardır.

Elizabet Barrett Brauninqin (1806-1861) "Avrora Li", "Səhralaşmış bağ", "İtirilən əlaqələr", "Həlak olmuş ağa", "Müsiqi aləti", "Portuqaliyalıdan sonetlər", "Lord Vallterin arvadı" və s. əsərləri vardır.

Latetiya Elizabet Landonun (1802–1838) "Sevginin sonuncu dərsi", "Felisiya Hemans", "Şahzadə Viktoriya", "Şairin Partiyası", "Çiçəyin ölümü", "Təcrübə üçün çox gecdir", "Əlvida" əsərləri vardır.

Ceyn Barker (1652-1732) ingilis şairəsi və sadiq yakobitçisidir. Onun əsərlərindən "Bosvil və Qalesiyanın məhəbbət və ya sevgi intriqaları", "Ekzilius, və ya qovulmuş romalı", "Poetik istirahətlər", "Zamana müraciət edən poemalar toplusu" və s. əsərləri vardır. Heç vaxt evlənməyən Ceyn Barker 1732-ci ildə tənha və kimsəsiz şəkildə vəfat etdi.

Elizabet Bas (1776-1844) ingilis şairəsi və 66 şeirdən ibarət şeir toplusunun müəllifi. O, "Dostlar" cəmiyyətinin (dərnəyinin) üzvü idi (4, 250).

Henrietta Battier (1751-1813) irland əsilli satirik şairəsi və aktrisasıdır. Onun "Komik qəhrəmanlıq poeması", "Qorunan qaçaqlar", "Kirvanad və ya poetik müraciətnamə", "Drayden kral üslubunda evlənmə" və s. əsərləri vardır.

Afra Ben (1640-1689) XVII əsr ingilis ədəbiyyatında özünəməxsus yeri olan qadın yazıçılardan biridir (6, 164). Onun qadın qələmi heç də o dövrün kişi yazıçılarının qələmindən geri qalmırdı (7, 58). ingilis şairəsi, dramaturqu, tərcüməçisi olmuşdur. Onun "Zorla evlənmə", "Sevgi şahzadəsi", "Holland həvəskarı", "Şəhər modabazı", "Gənc kral", "Yalan hesab", "Ata kimi, oğul kimi", "Ay imperatoru", "Dul qadın Ranter", "Kiçik qardaş", "Ədalətli fırıldaqçı", "Rahibənin tarixi" və s. əsərləri vardır
.

Anna Bredstrit (1612-1672) İngiltərənin Şimali Amerikadakı ilk məşhur şairəsidir. Onun əsərləri ölümündən sonra nəşr edilib. Onun əsərlərindən "Dörd element", "Dörd monarxiya", "Köhnə və yeni İngiltərə arasında dialoq", "İlin dörd fəsli", "Mənim əziz və sevimli ərimə", "Hərarətdən xilas olma" və s. əsərləri vardır.

Felisiya Dorotiya Hemansın (1793–1835) "Qadınların hesabatları", "Rossi Properziya", "Hindistan qadınlarının ölüm mahnısı", "Şairənin qəbri", "Korinna Kapitolidə", "Şair Vodsvorsa" və s. əsərləri vardır.

Meri Vrosun (1587–1652) "Pamfildən Amfilanta sonetlər", "Qadın və kişi səsələri", "Zamanın sakitliyi və hiyləgərliyi" və s. əsərləri vardır.

Margareta Kavendişin (1623–1673) "Atom poemaları", "Mən şair kimi nə doğuldum, nə də yetişdim", "Ağrı və bədən", "Şadlıqdan", "Bədən və ruh arasında dailoq", "Yeni dünyanın təsviri, və ya parlaq dünyaya çağırış", "Qadınların yaşa görə geyimləri", və s. əsərləri vardır.

Anna Bannerman (1765-1829) şotland əsilli ingilis şairəsidir. Onun çoxlu poemaları, balladaları, odaları, sonetləri vardır. Ən məşhur əsərləri "Markiz de Lafayetdən General Vaşinqtona müraciətnamə" və "Mövhumat və alicənablıq" əsərləridir.

Anna Latetia Barbauld (1743-1825) geniş mövzu diapazonuna malik Barbauldun poeziyası özünün feminist ideyaları ilə müasiri olduğu qadın yazıçılarının yaradıcılığına çox böyük təsir göstərdi ki, bu da bir çox ədəbi tənqidçilərin diqqətini özünə cəlb etmişdir. Bu tənqidçilərdən İzabel Armstronq qeyd edirdi ki, "Barbauld başqa romantik qadın yazıçıların heç bir xüsusi feminist ideyaları ilə razılaşmırdı. O öz yaradıcılığında iki strategiya tətbiq etdi. Bələki o, xüsusi intuitiv və emosional qadın forma, üslub və danışıq tərzindən və özlərinin qadın təcrübəsindən istifadə etməklə kişilərin ənənəvi fəlsəfi ideyalarına meydan

oxudular. Barbauldun əsərlərindən "Zəbur" kitabından seçilmiş bir çox dini şeirlərin nəzmlə tərcüməsi, "Dini sektalarda və dini təşkilatlarda dini zövq haqqında fikirlər", "Uşaqlar üçün dərslər", "Uşaqlar üçün himnlər" və s. əsərlər daxildir.
Adlarını çəkdiyimiz ingilis qadın şairləri ingilis ədəbiyyatı tarixində çox böyük zəhməti olan və ədəbi yaradıcılıq baxımından heç də ingilis kişi şairlərindən geri qalmayan dahi söz ustalarıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Acheson, James and Romana Huk. Contemporary British Poetry. New York, "State UP", 1996, 418 p.
2. Armstrong Isobel. Victorian Poetry: Poetry, Poetics and Politics. London: "Routledge" 1993, 543 p.
3. Barratt, Alexandra, ed. Women's Writing in Middle Ages. London, "Longman", 1992, 328 p.
4. Cosman, Carol, et al., eds. The Penguin Book of Women Poets. London, "Allen Lane", 1978, 399 p.
5. Curran, Stuart. The Cambridge Companion to British Romanticism. Cambridge, "Cambridge University Press", 2000, 217 p.
6. Erikson, Robert A. "The Generous Heart. Aphra Behn, Oroonoko, and the Woman Writer". Ch. 4 of The Language ofthe Heart, 1600-1750, Philadelphia, "U. Pennsylvania R", 1997, pp. 147-184.
7. Goldberg, Jonathan. "Aphra Behn's Female Pen". Desiring Women Writing. English Renaissance Examples. Stanford, "S.U.P.", 1997, p.p. 42-72.
8. Goreau, Angeline ed. The Whole Duty of a Woman: Female Writers in 17th-Century England. New York, "Dial", 1985, 344 p.
9. Gray F. Elizabeth. Alice Meynell. Literary Reviewing and the Cultivation of Scorn". Women in Journalism at the Fin de Siecle: Making a name for Hersele. Ed. Elizabeth Gray. New York: Polgrave Macmillan, 2012, pp. 71-90
10. Stodart Mary Ann. Female writers. Thoughts on their Proper Sphere, and on their Powers of Usefulness. London: R.B.Seeley and W.Burnside, 1842 , 399 p.

Açar sözlər: İngilis ədəbiyyatı, qadın yazıçılar, Penelopa Aubin, Afra Ben, Elizabet Qrey.

"Tədqiqat Bakı Dövlət Universiteti üzrə Universitetdaxili "50+50" qrant layihəsinin dəstəyi ilə aparılmışdır"